**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**SƏRƏNCAMINDAN ÇIXARIŞ**

**№** 34 13 fevral **2026-cı il**

**"Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsi"nin yeni tərkibinin təsdiq edilməsi haqqında**

"Məşğulluq haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 09 avqust 2001-ci il tarixli 549 saylı Fərmanına əsasən, "Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsi"nin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə və aparılan kadr dəyişiklikləri ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.8.2-ci və 6.8-ci bəndlərinə əsaslanaraq

**Q Ə R A R A A L I R A M :**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının yanında "Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsi"nin yeni tərkibi aşağıdakı kimi təsdiq edilsin.

**Komitənin sədri:**

| | |
|---|---|
| - Hacıbaba Babayev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Komitənin üzvləri:**

| | |
|---|---|
| - İskəndər Cahangir-zadə | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlili sektoru, şöbə müdirin müavini-sektor müdiri |
| - Emil Əbdülrəhimli | Bakı Regional Məşğulluq filialının Müdir müavini |

- Anar Əliyev — Binəqədi Rayon Polis İdarəsinin İctimai Təhlükəsizlik şöbəsinin baş inspektoru

- Hümbət Hüseynov — M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri

- Anar Məmmədov — Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Binəqədi rayon Həmkarlar İttifaqı Komitəsinin sədri

2. Komitənin üzvlərinə tapşırılsın:

- İşə götürənlər tərəfindən mövcud vakant iş yerlərini Məşğulluq Mərkəzinə tam və dolğun təqdim olunması istiqamətində Rayon Məşğulluq Mərkəzi ilə birlikdə əlaqəli işi qursunlar;
- Azərbaycan Respublikası vətəndaşlarının habelə vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmasına şərait yaradılmasını təmin etsinlər;
- Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində rüb ərzində bir dəfə olmaqla işəgötürənlərlə mütəmadi görüşlər keçirsinlər və əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində monitorinqlər aparsınlar.

- Rayon ərazisində işaxtaran vətəndaşların qeydiyyatının aparılması, onların münasib işlə təmin edilməsi, işsiz statusunun verilməsi, haqqı ödənilən ictimai işlərə cəlb olunması, kvota yerləri müəyyən olunmuş sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşlar üçün, o cümlədən xüsusilə aztəminatlı əhali qrupları, azyaşlı uşaqlara qulluq edən analar, 20 yaşadək gənclər, əlillər, pensiya yaşına az qalmış şəxslər və sair əhali qruplarının məşğulluğunun təmin edilməsi istiqamətində işlərin davam etdirilməsini təmin etsinlər.

3. Komitənin sədri Hacıbaba Babayeva tapşırılsın ki, komitənin fəaliyyətini təşkil etsin və görülmüş işlər barədə Rayon İcra Hakimiyyətinin başçısına rüb ərzində bir dəfə olmaqla məruzə etsin.

4. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlili sektoru, şöbə müdirin müavini-sektor müdiri İskəndər Cahangir-zadəyə tapşırılsın ki, Özünəməşğulluq proqramının vaxtında və yüksək keyfiyyətlə icra edilməsi məqsədilə Rayon Məşğulluq Mərkəzi ilə birlikdə koordinasiyalı işi qursunlar və Rayon İcra Hakimiyyətlərinin səlahiyyətləri çərçivəsində lazımi köməklik göstərsin

5. Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri**
**və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN